# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ CAVAN QARAMALIN YETİŞDİRİLMƏSİ

**Zeynəb Hüseynova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, zeynebhuseyova1967@mail.ru*

Son illərdə ölkəmizdə kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması, ölkənin aqrar potensialının təbliği istiqamətində mühüm uğurlar əldə edilib. Aqrar islahatların müasir mərhələsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş qərarlar, ölkədə bu sahənin institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlərin icrası kənd təsərrüfatının keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməsinə təkan verib.

Torpaqlar bərpa edilib təsərrüfatların istifadəsinə verildikdən sonra növbəti mərhələdə heyvandarlıq fermalarının qurulması və təsərrüfatlarının heyvanlarla təmin olunması istiqamətində tədbirlər görülməlidir. Heyvandarlığın intensiv amillər hesabına inkişafı imkanları nəzərə alınmaqla fermaların qurulması və təsərrüfatların məhsuldar heyvanlarla təmin olunması məsələsi aktuallıq kəsb edir.

Əhalinin heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsi sahəsində mal-qaranın baş sayının artırılması və möhkəm yem bazasının yaradılması ilə yanaşı, onun keyfiyyətcə yaxşılaşdırılması da çox böyük bir tədbir kimi qarşıya qoyulmuşdur. Bu isə heyvandarlığın bütün sahələrində seleksiya-damazlıq işlərinin səviyyəsini artırmağı tələb edir. Fermer təsərrüfatlarında məqsədyönlü seleksiya-damazlıq işlərinin aparılması təşkil olunmalıdır.

Cavanların daha sağlam və möhkəm, yüksək məhsuldarlığa malik olması onların yetişdirilmə texnologiyasından bilavasitə asılıdır. Onların hansı istiqamətdə yetişdirilməsi əsas götürülür. Yəni, cavanlar damazlıq və ya ümumi istifadə üçün yetişdirilə bilər. Belə bir yetişdirmə üsulu daha çox ət və süd almağa imkan verər. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə heyvandarlığın inkişaf etdirilməsi üçün çox geniş potensial imkanlar var.

Buzovların səmərəli saxlanması və yetişdirilməsində ən vacib məsələ onların saxlandığı yerlərin zoobaytar tədbirlərə uyğun olmasından asılıdır. Yeni doğulmuş buzovlarla bağlı aşağıdakılara diqqət yetirmək lazımdır: Buzovu yaxşı təmizlənmiş və quru samanla döşənmiş qəfəsdə yerləşdirmək; yeni doğulmuş buzova daimi olaraq yüksək gigiyenik şəraitdə baxmaq; ilk 3 saat ərzində ağız südünün verilməsi, sonrakı dövrlərdə isə təyin edilmiş vaxtlarda gündəlik 4-5 litr norma ilə südlə bəslənməsi; buzovun saxlanacağı yeri azı bir həftə əvvəldən dezinfeksiya etmək. Buzovların hansı istiqamətdə yetişdirilməsi nəzərə alınmalıdır.

Aparılan tədqiqatlar nəticəsində müxtəlif yaşlarda olan heyvanlar üçün yemləndirmə sxemləri işlənib hazırlanmalıdır. Belə ki, damazlıq üçün ayrılmış buzovların yem norması, çıxdaş olacaq buzovların yem normasından fərqli olmalıdır. Ona görə də buzovlar üçün doğulduqdan 6 aylığa kimi yemləndirmə norması planlaşdırdıqda buzovun, canlı kütləsi və konstitusiyası nəzərə alınır.

Əgər buzova normada nəzərə tutulduğundan artıq qüvvəli yem verilərsə, o vaxt buzov qaba və sulu şirəli yemləri çox həvəssiz yeyir. Belə olduqda buzov böyüyüb inək olduqda onun mədəsi qaba və sulu şirəli yemi yeməyə öyrənmədiyindən inək az süd verir.

Fermer həmişə yadında saxlamalıdır ki, gələcəkdə inəkdən yüksək məhsul götürməyin əsası cavan yaşlarından qoyulur. Ona görə də fermer kiçik yaşlarından buzovlara çoxlu miqdarda qaba və sulu şirəli yemləri verməyə alışdırmalıdır. Yay dövründə isə otlaqdan istifadə etməklə yaşıl kütlə verilməsi buzovun mədə-bağırsaq sisteminin inkişafına səbəb olur.

Təcrübələrlə müəyyən edilmişdir ki, buzova çoxlu miqdarda sulu-şirəli yem verdikdə onun mədəsinin birinci üç şöbəsi (işkənbə, torcuq, kitabça) və bağırsaqları yaxşı inkişaf edir. Buzov böyüyüb yaşa dolduqdan sonra isə onun orqanizmi qaba və sulu-şirəli yemləri yaxşı mənimsəyir.

Yetkin inəklərə nisbətən buzovların qida maddələrinə, vitamin və mineral maddələrə olan tələbatı yüksəkdir. Bəslənmədə olan buzovların A və D vitaminlərinə çox böyük ehtiyacı vardır, buna görə yem payı düzgün tərtib edilmədikdə buzovlar avitaminoz xəstəliklərinə tutulur. Körpə buzovlar 6 aylıq yaşa çatana qədər A vitamininin çatışmamasına çox həssas olurlar. Yem payına vitaminli quru ot, yaşıl ot, yerkökü əlavə edilməklə buzovların A vitaminə olan ehtiyacı ödənilir.

İnək naxırlarının təkmilləşdirilməsində, baş sayının artırılmasının və süd məhsuldarlığının yüksəldilməsində, heyvanların canlı kütləsinin artırılmasında, tez yetişkənliyinin təmin edilməsində və yaxşılaşdırılmasında təmir üçün seçilmiş cavanların düzgün yetişdirilməsinin əhəmiyyəti son dərəcə böyükdür.

Cavanlarda yem payı elə tərtib edilməlidir ki, inkişafın bu dövründə sutkada 500-600 qram çəki artımı almaqla 18 aylıqda orta çəki 270-280 kiloqrama çatdırılsın.